Azərbaycan Respublikası Vəkillər Kollegiyasının
sədri cənab Anar Bağırova

Vətəndaş Vasif Məmmədov tərəfindən

# Təşəkkürnamə

**Hörmətli Anar müəllim**, bu məktubu sizə təşəkkür məqsədi ilə göndərirəm. Sizə ona görə təşəkkür edirəm ki, sizin yeni və gənc vəkillərin seçiminə göstərdiyiniz xüsusi diqqət nəticəsində bizim Azərbaycan vəkilliyinə olan inamımız daha da artmaqdadır. Biz artıq inanırıq ki, sizin sayənizdə ölkəmizdə bizim hüquqları layiqincə müdafiə edə bilən və haqsızlıqlara qarşı gələ bilən savadlı vəkillər formalaşmışdır.

Mənim Azərbaycan vəkilliyinə və gənc vəkillərimizin gücünə olan inamımın daha da artmasına səbəb bir neçə gün öncə oğlum Məmmədov Kamran Vasif oğlu barəsində olan cinayət işi üzrə Bakı Apellyasiya Məhkəməsində keçirilən məhkəmə iclasında sizin kollegiyanızın üzvü, **"Yusif Allahverdiyev və partnyorları"** vəkil bürosunun vəkili **Hüseynov İbrahim Hüseyn** oğlunun göstərdiyi çox yüksək səviyyəli iştirak və çıxış oldu. Məlumat üçün bildirirəm ki, mənim oğlum haqsız yerə Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə ittiham olunurdu və Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən ona 5 il 6 ay cəza verilmişdi. Lakin oğlumun haqsız yerə bu ağır maddə ilə ittiham olunmasını qəbul edə bilmədiyimiz üçün həmin hökmdən apellyasiya şikayəti vermişdik. Biz heç bir vəkillə müqavilə bağlamasaq da, oğluma dövlət hesabına vəkil təyin olundu və İbrahim Hüseynov dövlət hesabına oğlumun vəkili oldu. İbrahim Hüseynov çox gənc olmasına baxmayaraq oğlumun hüquqi müdafiəsini çox yüksək formada həyata keçirtdi və oğlumun üzərinə atılan böhtanın aradan qaldırılmasına səbəb oldu. Nəticədə oğlumun həmin maddə ilə ittiham olunması aradan qalxdı və oğlum yalnız Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə təqsirli bilinərək onun cəzası 1 il 9 aya endirildi. Bunun üçün ilk növbədə başda siz olmaqla rəhbərlik etdiyiniz quruma, Yusif Allahverdiyev və partnyorları vəkil bürosuna və vəkil İbrahim Hüseynova sonsuz təşəkkürlərimi bildirirəm.

Hörmətlə,

Vasif Məmmədov

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 188
« 24 » 01 2023

## office

**От:** Ibrahim Huseynov <ibrahim_huseynov@hotmail.com>
**Отправлено:** 23 января 2023 г. 17:14
**Кому:** office@barassociation.az
**Тема:** Təşəkkürnamə
**Вложения:** 20230123_170943.jpg

Sent from Outlook